# İkinci İmamımız

# Hz. İmam Həsən (ə)



İslam Peyğəmbərinin (s) əziz qızı xanım Fatimeyi-Zəhranın (s) və imam Əlinin (ə) ilk meyvəsi, ikinci imam Həsən Müctəba (ə) hicrətin 3-cü ili, Ramazan ayının 15-də Mədinə şəhərində dünyaya gəlmişdir. Peyğəmbər (s) nəvəsinin dünyaya gəlişindən sonra, onu qucağına alıb sağ qulağına azan və sol qulağına iqamə dedi, onun dünyaya gəlişi münasibətilə bir qoyun qurbanlıq etdi və adını Həsən qoydu. O vaxa qədər kiməsə Həsən adı qoyulmamışdı.

İmam Həsən (ə) təxminən yeddi yaşında ikən Peyğəmbər (s) dünyadan köçdü. Peyğəmbərdən (s) sonra, təxminən, otuz il atası imam Əli (ə) ilə birgə oldu. Atasının şəhadətindən sonra (hicrətin 40-cı ilindən) on il müddətinə qədər müsəlmanlara imamlıq etdi və nəhayət, hicrətin 50-ci ilində Müaviyənin hiyləsi ilə qırx səkkiz yaşında zəhərlənərək şəhadətə yetdi. Müqəddəs məzarı Mədinə şəhərinin Bəqi qəbiristanlığında yerləşir.

Bəli, imam Həsən (ə) Rəsulullah (s) kimi böyük bir peyğəmbərin, imam Əli (ə) və xanım Zəhra (ə) kimi ata və ananın qucağında böyümüşdü. Peyğəmbər (s) imam Həsənə (ə) və qardaşı imam Hüseynə (ə) Oğlum! deyə xitab edir və gələcəkdə Əhli-beytin əleyhinə xilafəti ələ keçirməklə bağlı təbliğat apara bilən siyasətçilərin, Əməvilər və Abbasilərin Əmirəlmöminin Əli (ə), imam Həsən (ə) və imam Hüseynin (ə) Peyğəmbərə (s) çatan ruhi və qohumluq əlaqələrini zədələyə və Əhli-beytin sevgisini xalqın ürəyindən çıxara bilməmələri üçün bu məsələyə çox israr edir və onu açıq-aşkar vurğulayırdı. Mübahilə ayəsində ( Ali-İmran surəsi, ayə 61) oğullarımız təbirinin imam Həsən (ə) və qardaşı imam Hüseyn (ə) barəsində işlədilməsi də onlar üçün əbədi bir iftixar, zati paklıq və müqəddəsliklərini göstərən aydın bir sənəddir. Təthir ayəsinin onların (Peyğəmbər, Əli, Fatimə, Həsən və Hüseyn əleyhimus-salam) məqamı haqda nazil olması bu məsələyə daha çox təkid edir.



Ənəs ibn Malikin də nəql etdiyi kimi, Əhli-beyt üzvləri içərisində imam Həsən (ə) qədər Rəsulullaha (s) bənzəyən bir şəxs yox idi. Rəsulullah (s) ən gözəl təbirlərlə onu mədh edir və elə üstün tuturdu ki, Əhli-beytin düşmənləri belə, sonralar Rəsulullahın (s) onunla necə davrandığını xatırladıqda, istər-istəməz o həzrətə qarşı ehtiram bəsləyir və qarşısında hörmətlə dayanırdılar.

Ümeyr ibn İshaq deyir: Əbu Hüreyrənin imam Həsən ibn Əli (ə) ilə qarşılaşaraq belə dediyini gördüm: Köynəyini qaldır ki, Rəsulullahın (s) öpdüyü yeri mən də öpüm... Rəsulullah (s) imam Həsən (ə) və imam Hüseyn (ə) haqqında buyurur: Həsən (ə) və Hüseyn (ə) istər qiyam, istərsə də, (bəzi maneə və məsləhətlər üzündən) sükut etsinlər, hər iki halda imamdırlar. Həsən və Hüseyn cənnət gənclərinin sərvəridirlər.

Əmirəlmöminin Əlinin (ə) şəhadətindən sonra imam Həsən (ə) minbərdə danışaraq camaatı onunla beyətə təşviq etdikdə, Əzd qəbiləsindən bir nəfər fəryad edərək dedi: Rəsulullahın (s) Həsən ibn Əlini (ə) yanında əyləşdirib belə buyurduğunu eşitdim: Məni sevən hər kəs Həsəni də sevsin və bunu eşidənlər eşitməyənlərə çatdırsınlar.

## İMAM HƏSƏN (Ə) ATASI İMAM ƏLİNİN (Ə) XİLAFƏTİ DÖNƏMİNDƏ

İmam Həsən (ə) atası imam Əlinin xilafəti dönəmində baş verən döyüşlərdə iştirak etdi. O həzrətin Nakisin lə döyüşündəki təsirli rolu onun cəmiyyətdəki siyasi üstünlüyünü aşılayan ən mühüm səhnələrdən biri idi. Əmirəlmöminin Əli (ə) Nakisin in islami hökumətə qarşı qiyamı barəsində Kufə xalqını məlumatlandırmaq və imam Əlini (ə) Cəməl səhabələrinə qarşı müdafiə etmələri üçün imam Həsəni (ə) öz nümayəndəsi olaraq Kufəyə göndərdi. O həzrət əvvəlcə qan axıdılmasını önləmək bəhanəsilə camaatın imam Əlinin (ə) dəvətini qəbul etməsinə mane olmaq istəyən Əbu Musa Əşərini səhnədən kənarlaşdırdı və sonra coşqun və təhrikedici sözlərilə döyüşdə iştirak etmək üçün Kufə əhalisindən on min adamı bir yerə topladı.



İmam Həsən (ə) Siffeyn döyüşündə də camaatı Müaviyənin ordusuna qarşı təhrik etməkdə nəzərə çarpacaq şəkildə fəaliyyət göstərən döyüşçülərdən idi. O həzrət o zaman Kufə əsgərlərini döyüşə və müqavimətə təşviq etmək məqsədilə onlara belə xitab etdi: Qarşınızda səf çəkib düzülən düşmənlərinizlə (Müaviyə və əsgərlərilə) döyüşməkdə əl-ələ verin və əsla süstlük göstərməyin; çünki süstlük qəlbin müqavimətini azaldır.

## İMAM HƏSƏNİN (Ə) ŞƏHADƏTİ

Müaviyənin öz hakimiyyəti dövründə törətdiyi dəhşətli cinayətlərdən biri də Rəsulullahın (s) məhəbbət bəslədiyi imam Həsəni (ə) şəhadətə yetirməsi idi. Tarixdə bu faciə açıq-aşkar qələmə alınmışdır və bu cinayət belə həyata keçirildi: Müaviyə özündən sonra oğlu Yezidi xəlifə təyin etmək istəyirdi. Amma imam Həsənlə (ə) imzaladığı sülh müqaviləsi ona mane olurdu. Buna görə də, xalqdan zorla beyət almaq və oğluna bu iş üçün yol açmaq məqsədilə İmamı (ə) qətlə yetirmək qərarına gəldi. O, hiyləgərcəsinə bir sui-qəsd təşkil edərək Əşəs ibn Qeysin qızı Cödədən (imam Həsənin (ə) həyat yoldaşı) istifadə etməklə İmamı zəhərləyərək şəhadətə yetirdi. Belə ki, Müaviyə Cödəyə bir qabda zəhər göndərdi və vəd etdi ki, əgər ərini zəhərləsə, ona yüz min dirhəm verib, oğlu Yezidə arvad edəcək. Şeytani vəsvəsələr, pul və şöhrət Cödənin gözünü tutub qəlbini kor etdi və səbəb oldu ki, tarixin heç bir zaman unutmayacağı bir xəyanəti həyata keçirib, Müaviyənin çirkin təklifini qəbul etsin. Nəhayət, Cödə 50-ci hicri-qəməri ilinin Səfər ayının 28-də, İmamın (ə) oruc olduğu bir vaxtda süd içdiyi qaba zəhər töküb, iftar üçün o həzrətin hüzuruna gətirdi. Beləliklə, bütün ömrü boyu hiyləgər və xain kimi tanınan Müaviyənin ikiüzlü və nifaq törədən siması bir daha bu cinayətdə



camaatın gözü önündə sərgiləndi.

O həzrətin dəfn mərasimindəki məzlumiyyəti diqqəti daha çox cəlb edir. İmam Həsənin (ə) yaxınları və ardıcılları o həzrəti öz vəsiyyətinə uyğun olaraq, İslam Peyğəmbərinin (s) məzarı kənarında dəfn etmək istədikdə, bir qrup Əməvi, Peyğəmbərin (s) zövcəsi Ayişə ilə birlikdə buna qarşı çıxdı. Mərvan ibn Həkəm bu fitnəkarların arasından səslənərək dedi: Osman Bəqi qəbiristanlığının ən uzaq bir yerində dəfn edildiyi halda, Həsən ibn Əlinin (ə) Rəsulullahın (s) evində dəfn edilməsinə icazə verəcəyimizi sanırsınızmı? Fitnəkar şəxs qatıra minərək miras yolu ilə Peyğəmbərin (ə) evinə sahib olduğunu iddia edir və canı bahasına olsa belə, imam Həsənin (ə) Rəsulullahın (s) qəbrinin kənarında dəfn edilməsinə mane olacağını bildirirdi. Bu kədərli hadisədən sonra imam Həsəni (ə) Bəqi qəbiristanlığında dəfn etdilər.

Allahın salam və salavatı olsun o həzrətin pak ruhuna!

## ELM VƏ ƏXLAQI

Bir gün Peyğəmbər (s) məscidində qoca bir kişi düzgün olmayan bir şəkildə dəstəmaz alırdı. İmam Həsən (ə) ona dəstəmazının səhv olduğunu başa salıb anlatmalı idi; amma necə? Əgər ona desəydi ki, dəstəmazın səhvdir, onda qəlbi sınar, yaxud narahat olub qəbul etməyə bilərdi. O, qardaşı imam Hüseyn (ə) ilə birlikdə belə qərara gəldilər ki, özləri dəstəmaz alıb həmin qoca kişini də onların bu hərəkətinə münsiflik etməyə çağırsınlar. İmam Həsən (ə) İmam Hüseynə (ə) dedi: «Mən səndən daha yaxşı dəstəmaz alıram». İmam Hüseyn (ə) isə onun cavabında: «Yox, mən səndən daha yaxşı dəstəmaz alıram» - dedi. İkisi də qoca kişinin yanına gəlib dedilər: «Bizim dəstəmaz almağımıza baxıb, hansımızın daha düzgün dəstəmaz almağımızı söylə». Sonra dəstəmaz almağa başladılar. Özü də dəstəmazlarını düzgün və tam şəkildə yerinə yetirdilər. Qoca kişi başa düşdü ki, onlar onun doğru dəstəmaz almadığını demək istəyirlər. Buna görə də onlara belə dedi: «İkinizin də dəstəmazı düzdür. Dəstəmaz almağı düzgün bilməyən cahil isə mən idim. Siz məni başa salmaq istəyirdiniz. Mən də sizə minnətdaram».

## TƏQVA VƏ İXLASI

İmam Həsən Müctəba (ə) camaatdan daha artıq abid və zahid idi. Həcc mərasimini yerinə yetirməkdən ötrü Məkkəyə gedəndə piyada gedər, namaz qılanda, ya dəstəmaz alanda isə özünü Allah qarşısında aciz görüb bədəni titrəyər və buyurardı ki, Allahın əmanətini




əda etməyin vaxtıdır. Məscidə girib mehrabda durduğu vaxt başını göylərə qaldırıb buyurardı: «Allahım, hüzurunda duran şəxs Sənin qonağındır. Sənin günahkar bəndən Sənə doğru gələrək onun pis işlərini bağışlamağını ümid edir. Çünki Sən rəhman və rəhimsən».

*Gürcüstan Müsəlmanları İdarəsi*

# İMAM HƏSƏNDƏN (Ə) HƏDİSLƏR

*. *"Daim məscidə gedən insan səkkiz faydadan birini əldə edər: 1. möhkəm ayə və nişanə; 2. bəhrələnə biləcəyi dost; 3. yeni elm və bilik; 4. gözlənilən ilahi rəhmət; 5. insanı doğru yola yönəldən söz (eşidəcək); 6. insanı alçaqlıq və çirkinlikdən uzaqlaşdıran söz (eşidəcək); 7. Allahdan utanıb günahları tərk etmək; 8. Allahdan qorxub günahları tərk etmək."*

*. *"Dünyan üçün elə çalış ki, sanki dünyada həmişə qalacaqsan. Axirətin üçün də elə çalış ki, sanki sabah öləcəksən. Əgər qohum-əqrəbasız izzət və səltənətsiz şövkət istəyirsənsə, Allaha qarşı məsiyət zillətindən çıxıb Allaha itaət izzətinə daxil ol!"*

*. *"Yeməyi haqda düşünən, amma əqli ehtiyacları haqda düşünməyən, bətnini zərərli qidalardan qoruyan, amma qəlbini ən alçaq əməllərlə dolduran şəxsə təəccüb edirəm."*

*. *"Haqq ilə batil arasında dörd barmaq qədər fasilə vardır; gözünlə gördüklərin haqq, qulağınla eşitdiklərinin çoxu isə batildir."*

*. *"Ağlı olmayanın ədəbi olmaz, himməti olmayanın mürüvvəti (mərdliyi) olmaz və dini olmayanın həyası olmaz."*

*. *"Allahı tanıyan Onu sevər, dünyanı tanıyan isə ona rəğbət bəsləməz."*

*. *"Əxlaqi gözəlliklər on xislətdən ibarətdir: 1. düzdanışmaq; 2. çətinlikdə sədaqət və doğruluq; 3. dilənçiyə bəxşiş etmək; 4. xoşəxlaqlılıq; 5. işlər müqabilində mükafat; 6. qohumlarla möhkəm əlaqə; 7. qonşuları himayə etmək; 8. Dostun haqqını tanımaq; 9. qonaqpərvərlik; 10. bütün bu xislətlərin başında duran xislət isə həyadır."*

*. *İmam Həsəndən (ə) "mürüvvət (mərdlik) nədir?" – deyə soruşulduqda, o həzrət buyurdu: "Dinə (dini qanunları qoruyub-saxlamaq və onalara əməl etməyə) hərislik, malı (haramdan) təmizləmək və insanların haqqını riayət etmək."*

*. *"Ağıldan böyük zənginlik, nadanlıq kimi yoxsulluq, xudbinlikdən şiddətli qorxu və xoşəxlaqlılıqdan ləzzətli həyat yoxdur."*